# Təbrizdə ilk Azərbaycan teatrı və Filarmoniya fars rejiminin qurbanları oldu...

**Cənubi Azərbaycanın mədəniyyət tarixini Şimali Azərbaycandan ayırmaq olmaz. Təbii, bunlar bir ağacın iki budağıdır ki, quzeydə baş verən mədəniyyət hadisələri güneydə də yaşanıb, amma burada onlar yarımçıq qalıb, sonu faciəvi olub...Baş verən mədəni inqilablar, yaradılan mədəniyyət ocaqlarının adı bu gün yalnız tədqiqat əsərlərində, məqalələrdə, fotoşəkillərdə, qısa videolarda qalıb. Bir sözlə, tarixə çevriliblər.**



"Təbriz Bakıya arxa" rubrikasında Azərbaycan Milli Hökumətinin mədəniyyət siyasəti, habelə Təbrizdə, Güneyin müxtəlif şəhərlərində yaradılan mədəniyyət ocaqları, mədəniyyət mühiti barədə danışmaq istəyirik. Bütün hallarda Təbrizin, Güneyin mədəni həyatı bizim üçün bir qürur mənbəyidir.

1945-ci ilin 12 dekabr tarixində elan olunan Azərbaycan Milli Hökumətinin siyasətində, qəbul etdiyi proqramlarda mədəniyyət xüsusi yerlərdən birini tuturdu. Heç şübhəsuz, Azərbaycan xalqı tarixən zəngin mədəniyyətə malik olub və bu mədəniyyətin nişanələri bir miras kimi ululardan bizə qalıb. Cənubi Azərbaycanın mədəni həyatı da zəngin milli mədəniyyətimizin özülləri üzərində pərvəriş tapdı. Məlumatlara görə, Azərbaycan Milli hökuməti zamanı Təbrizdə ilk Azərbaycan Dövlət Teatrı yaradıldı və 1946-cı ildə Təbriz Dövlət Filarmoniyası da fəaliyyət göstərdi. Bu barədə sənədlərdə vurğulanır ki, 1946-cı il mart ayının 28-də isə Təbrizdə Azərbaycan Dövlət Teatrı yarandı. Ərdəbil, Astara, Marağa və digər şəhərlərdə də teatr binaları tikildi. Yeni kinoteatrların açılması ilə yanaşı, köhnələrinin nizama salınması, teatr binalarının, eləcə də, qədim abidələrin təmiri kimi mədəni işlərin görülməsi üçün Azərbaycan Milli Hökuməti büdcədən 14 milyon 22 min 300 tümən pul ayrılmasını təsdiq etdi. 1946-cı il aprel ayının 7-də Azərbaycan radio stansiyası açıldı, Radio Komitəsi fəaliyyətə başladı. Həmin ilin iyul ayının 5-də Behzad adına İncəsənət Muzeyi, oktyabr ayının 3-də isə Azərbaycan Milli Orkestri, onun əsasında təşkil olunmuş Dövlət Filarmoniyası fəaliyyətə başladı. Təbriz şəhərində Ali İncəsənət və Rəssamlıq Məktəbinin açılması, Azərbaycan Rəssamlar və Heykəltəraşlar Cəmiyyətinin təşkil olunması Güneyin mədəni həyatı barədə bizə doğun məlumat verir.

İnternet resurslarında yer alan məlumatlarda vurğulanır ki, mədəniyyət sahəsində mühüm işlər görüldü. Milli hökumətin 1946-cı il 6 yanvar tarixli "Dil haqqında Azərbaycan Milli hökumətinin qərarı" ilə Azərbaycan dili Cənubi Azərbaycanda rəsmi dövlət dili elan olundu.

Məlumatlara görə, xalq hökuməti hesabına 7 şəhərdə tərbiyə evləri, şəhər, qəsəbə və kəndlərdə çoxlu kitabxana və qiraətxana açıldı, Azərbaycan Rəssamlar və Heykəltəraşlar Cəmiyyəti təşkil olundu, əhalinin vəsaiti hesabına bir ildə 2000-dən artıq məktəb açıldı. Azərbaycan dilində 20-dən çox qəzet və jurnal nəşr edilməyə başlandı. 1946-cı ilin yanvarında "Azərbaycan şairlər məclisi"adlı yazarlar birliyinin yaradılması oradakı milli ədəbi prosesdə mühüm hadisəyə çevrilmişdi. "Şairlər Məclisi" adlı topluda yazıçı və şairlərin ana dilində ədəbi nümunələri işıq üzü gördü. Birliyin Ərdəbil Urmiya, Zəncan, Sərab, Mərənd, Səlmas, Marağa və başqa . şəhərlərində filialları fəaliyyət göstərirdi. Azərbaycanda yaradılan yeni mədəniyyət ocaqlarından bəhs edən "Demokrat" məcmuəsi yazırdı ki, indi Azərbaycanın şəhər və kəndlərində hər gün minlərlə yeni mədəni-maarif ocaqları yaranmaqdadır. Milli Hökumət tərəfindən maddi və mənəvi cəhətdən dəstəklənən teatr truppaları 1946-cı ildə Azərbaycanın bütün şəhərlərində fəaliyyət göstərməyə başlayıb. Azərbaycan dilində qurulan teatr tamaşalırının əsas mövzuları sırasında milli vətənpərvərlik, maarifləndirmə, cəhalət və xürafatdan uzaqlaşmaq, əxlaq və mədəniyyət, qadın problemi əsas yer tuturdu. 1946-cı il martın 28-də Təbrizdə Azərbaycan Dram Teatrının açılması Azərbaycan mədəniyyəti tarixində əlamətdar hadisə olur. Azərbaycan teatrı Milli Hökumətin mədəni-maarif proqramının icrasında fəal iştirak edib.

Məlumatlara görə, Sovet hərbi hissələrinin tərkibində Cənubi Azərbaycana gedən Azərbaycanın yazıçı, şair ədəbiyyatşünas və publisistləri Süleyman Rüstəm, Süleyman Rəhimov, Məmməd Rahim, Əvəz Sadıq, Osman Sarıvəlli, Cəfər Xəndan, Abbas Zamanov, Qulam Məmmədli, İsrafil Nəzərli və başqalarının fəaliyyəti sayəsində Təbriz ədəbi mühitində böyük bir canlanma yarandı. Bu fikirlər də internet resurslarında Milli Hökumətlə haqda olan məlumatdan götürülüb.

Bildirək ki, çoxlarımız Cənubi Azərbaycanın mədəni həyatı, güneylilərin mədəni inkişafı, teatrın, filarmoniyanın solistlərinin ifası barədə maraqlı görütüləri rejissor və ssenarist Esfir Şubun 1947-ci ildə Bakı Kinostudiyasında lentə aldığı "Arazın o tayında" tammetrajlı publisistik filmdə görə bilirik. Film 1945-1946-cı illərdə Cənubi Azərbaycanda baş verən hadisələri ekranda canlandırır. Filmdə Güney Azərbaycanda müxtəlif illərdə çəkilmiş zəngin kinomateriallardan istifadə edilib. Film burada Azərbaycan xalqının öz azadlıq və müstəqilliyi uğrunda apardığı mübarizəni, ölkədə gedən demokratik hərəkatı tərənnüm edir, filmdə öz xalqına qəlbən bağlı olan adamlar- Şeyx Məhəmməd Xiyabani, Səttar Xan, Bağır Xan, Pişəvəri, Qulam Yəhya və başqaları haqqında söhbət açılır.

Coşub daşan, gur Araz çayı çox hadisələrin şahidi olub, başı qarlı Savalan dağı, çiçəkləyən meyvə bağları, tarixi memarlıq abidələri, milli-azadlıq hərəkatı döyüşçülərinin qərargahına çevrilmiş uzaq dağ yerləri, qayaüstü təsvirlər Güney Azərbaycanının koloritli obrazını yaradır.

Sözügedən filmdə də göstərilir ki, Milli Hökumət devrildikdən sonra şah rejimi, farsşovinist Pəhləvilər xalqımızın başına hansı bəlalar gətirir. Şovinist rejim Milli Hökumətin qurub-yaratdığı teatrları, filarmoniyanı, milli orkestri, rəssamlıq məktəblərini, bir sözlə, mədəniyyətə, elmə, təhsilə aid nə varsa hamısını dağıdıb məhv etdi. Əlbəttə, xalqımızın mədəniyyət ocaqları rejim tərəfindən məhv edildi, amma onların nə adlarını, nə fəaliyyətlərini, nə də oynadıqları rolu tarixdən silə bilmədilər. Cəmi bir il fəaliyyət göstərən Milli Hökumət böyük mədəniyyət hadisələrinə imza atdı. Bu gün o tarixi irs barədə fəxrlə danışırıq. Onlar bizim xalqımızın adını, tarixini, mədəniyyətini əks etdirən bir dünyadır.

Bakıda baş verən mədəni hadisələr dərhal özünü Təbrizdə ifadə edirdi. Təbriz və Bakı, iki ayrılmaz qardaş, bir ananın iki övladı hər zaman bir-birinin səsinə səs verib. Maraqlıdır ki, hələ Güney Azərbaycanda Milli Hökumət qurulmamışdan bir neçə il əvvəl, daha dəqiq desək, 1941-ci ildə Şimali Azərbaycanın mədəniyyət xadimləri Pəhləvi rejiminin zülmündən əziyyət çəkən soydaşlarımızın mədəni həyatını canlandırmaq üçün Təbrizə getdilər. İstərdik ki, bir neçə kəlmə də onların fəaliyyətindən yazaq. Tarixi sənədlərdə qeyd edilir ki, Sovet-İran mədəni əlaqələrinin inkişafında Azərbaycan Respublikasının mədəniyyət xadimləri mühüm rol oynayırdılar. Cənubi Azərbaycana qastrol səfərinə gələn ilk sovet incəsənət kollektivlərindən biri - M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrı Üzeyir Hacıbəyovun "Koroğlu", "Leyli və Məcnun", "Əsli və Kərəm", M.Maqomayevin "Şah İsmayıl" operalarını, Ü.Hacıbəyovun "Arşın mal alan" musiqili komediyasını tamaşaçılara göstəriblər. Qastrolların müvəffəqiyyətlə keçməsində rejissor İsmayıl Hidayətzadənin dirijor Niyazinin, balet ansamblının rəhbəri Qəmər Almaszadənin, artistlərdən Bülbülün, Əlövsət Sadıqovun, Həqiqət Rzayevanın böyük əməyi olub. 1941-ci il oktyabrın 26- da SSRİ xalq artisti Şövkət Məmmədova təbrizlilər qarşısında geniş konsertlə çıxış edir və 1942-ci il fevralın 20-dən aprelin 9-dək Rəşid Behbudovun İran qastrolları uğurla keçir. Bakı Kinostudiyasında istehsalı olan "Kəndlilər", "Bakılılar", "T9" sualtı qayığı" bədii, "Ordenli Azərbaycan", "Əbədi Odlar ölkəsi" sənədli və "Zoya", "O, Vətəni müdafiə edirdi", "217 №-li adam" dublyaj filmləri nümayiş etdirilib.

Güneyli və qüzeyli sənətkarların, ədəbiyyat, mədəniyyət xadimlərinin qarşılıqlı əlaqələri barədə çox yazmaq olar. Əlbəttə, deməyə sözümüz çoxdur. Tarixdə ən böyük və dəyərli sözü isə Təbriz-Bakı qardaşlığı, arxadaşlığı deyir. Əminik ki, tarixə yeni sözlər yazılacaq, bu sözləri isə Cənubi azərbaycanlılar milli hökumət qurmaqla deyəcəklər...

***İradə SARIYEVA***